# ABŞ həqiqəti anlamağa başlayır

## Rəsmi Vaşinqton Azərbaycanla münasibətləri normallaşdırmaq üçün addımlar atır

ABŞ rəsmiləri Azərbaycanın heç kimdən çəkinmədiyini, heç bir hədə ilə öz milli maraqlarından, müstəqil siyasətindən geri çəkilməyəcəyini ötən müddətdə açıq-aydın gördülər.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ABŞ dövlət katibi Entoni Blinken, həmçinin bu ölkənin digər nümayəndələrinin müraciətinə əsasən, Prezident İlham Əliyevlə keçirilən görüşlər Amerikanın yanlış yolda olduğunu az da olsa anladığını göstərdi. Görünən budur ki, Vaşinqton Azərbaycanın qətiyyətini, iradəsini, dövlət başçısının doğru bildiyi yoldan dönməyəcəyini bir daha gördü.

Ayrı-ayrı Amerika nümayəndələrinin Azərbaycanla bağlı fərqli çıxışları münasibətlərimizə təsir edə bilməz. Həm Azərbaycan, həm də ABŞ iki ölkə arasında əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar.

6

# ABŞ həqiqəti anlamağa başlayır

## Rəsmi Vaşinqton Azərbaycanla münasibətləri normallaşdırmaq üçün addımlar atır

Son vaxtlar Ermənistanla münasibətlər fonunda Azərbaycanla əlaqələrini nəzərdən keçirəcəyini vurğulayan ABŞ-nin bir çox rəsmi şəxsin çıxışında ölkəmiz əleyhinə bəyanatlar uzun müddət idi ki, səngimirdi. Rəsmi Vaşinqton Ermənistanla münasibətlərin normallaşması istiqamətində Azərbaycanın guya heç bir addım atmadığını iddia edərək şər-böhtan kampaniyası aparırdı.



ABŞ rəsmiləri Azərbaycanın heç kimdən çəkinmədiyini, heç bir hədə ilə öz milli maraqlarından, müstəqil siyasətindən geri çəkilməyəcəyini ötən müddətdə açıq-aydın gördülər.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ABŞ dövlət katibi Entoni Blinken, həmçinin bu ölkənin digər nümayəndələrinin müraciətinə əsasən, Prezident İlham Əliyevlə keçirilən görüşlər Amerikanın yanlış yolda olduğunu az da olsa anladığını göstərdi. Görünən budur ki, Vaşinqton Azərbaycanın qətiyyətini, iradəsini, dövlət başçısının doğru bildiyi yoldan dönməyəcəyini bir daha gördü.

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Münxen Təhlükəsizlik Konfransında iştirak edərkən hansısa tərəflə görüşmək istəyini bildirməmişdi. Bununla belə, Prezident İlham Əliyevlə görüşmək istəyənlərin sayı həddən artıq çox idi: "Bunu informasiya agentliklərinin məlumatında da gördük. ABŞ dövlət katibi Entoni Blinkenin və ABŞ prezidentinin müşaviri Con Kerrinin ölkəmizin rəhbəri ilə görüşmək istəkləri onu göstərdi ki, Azərbaycan dünya birliyində böyük nüfuza malikdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı çoxdur".

ABŞ-nin Azərbaycanı yaxın tərəfdaş kimi gördüyünü deyən A.Mirzəzadə bildirib ki, ölkəmizin regionda, ümumən dünya birliyində tutduğu mövqe çox böyük və əhəmiyyətlidir. Azərbaycan Şərq, islam ölkəsidir. Bununla belə, müasirləşən Avropa dəyərlərini özündə əks etdirən bir türk dövlətidir. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşlər onu göstərdi ki, Azərbaycan bundan sonra da dünya birliyində yüksək nüfuza malik olacaq.

Deputatın fikrincə, ayrı-ayrı Amerika nümayəndələrinin Azərbaycanla bağlı fərqli çıxışları münasibətlərimizə təsir edə bilməz. Həm Azərbaycan, həm də ABŞ iki ölkə arasında əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 22 fevral, № 40.- S.1, 6.